51.10.2. “10. Tədbirlər planı” hissəsinin 1.1.1 - 1.1.3-cü, 1.2.1-ci, 1.2.6-cı, 2.1.1-ci, 2.1.2-ci, 2.2.1 - 2.2.3-cü, 2.3.1 - 2.3.4-cü, 2.4.1 - 2.4.5-ci, 2.5.1 - 2.5.4-cü, 3.1.1-ci, 3.1.2-ci, 3.2.2 - 3.2.4-cü yarımbəndlərinin “Digər icraçılar/Tövsiyə” sütununda, 1.2.2 - 1.2.5-ci, 1.3.1-ci və 1.3.2-ci yarımbəndlərinin “Əsas icraçı” sütununda “Rabitə və Yüksək Texnologiyalar Nazirliyi” sözləri “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi” sözləri ilə, 1.2.1-ci və 3.1.2-ci yarımbəndlərinin “Tədbirin adı” sütununda “RYTN” akronimi “NRYTN” akronimi ilə əvəz edilsin.

52. “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə”nin və “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın tərkibi”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 dekabr tarixli 1169 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 12, maddə 2087; 2017, 1, maddə 42) aşağıdakı dəyişikliklər edilsin:

52.1. həmin Fərmanla təsdiq edilmiş 1 nömrəli əlavə - “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə”nin 4.1-ci bəndində “nəqliyyat nazirinin” sözləri “nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin” sözləri ilə əvəz edilsin;

52.2. həmin Fərmanla təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın tərkibi”nin “Komissiyanın üzvləri” hissəsindən “Azərbaycan Respublikasının nəqliyyat naziri” sözləri çıxarılsın və həmin hissəyə “rabitə” sözündən əvvəl “nəqliyyat,” sözü əlavə edilsin.

53. “Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1180 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 12, maddə 2098) 1.1.1.28-ci, 1.4.7.8-ci, 1.9.2-ci və 1.12.2.1-ci yarımbəndlərində “Xərclərin istiqaməti” sütununa “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

54. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 12, maddə 2099) ilə təsdiq edilmiş “Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair tədbirlər planı”nın 10-cu və 11-ci bəndlərinin “İcraçılar” sütununa “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

55. “YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 sentyabr tarixli 1006 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 9, maddə 826; 2006, 9, maddə 743, 2014, 9, maddə 1027; 2015, 3, maddə 286; 2016, 7, maddə 1282) 3-cü hissəsinə “rabitə” sözündən əvvəl “nəqliyyat,” sözü əlavə edilsin.

56. “Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə Dövlət Komissiyası və Dövlət Proqramının hazırlanması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 1348 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 3, maddə 245, 7, maddə 588; 2009, 2, maddə 74; 2014, 5, maddə 477, 9, maddə 1027; 2015, 11, maddə 1301; 2016, 8, maddə 1384; 2017, 1, maddə 51) 1-ci hissəsində “Əli Abbasov - Azərbaycan Respublikasının rabitə və yüksək texnologiyalar naziri” sözləri “Ramin Quluzadə - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri” sözləri ilə əvəz edilsin və həmin hissədən “Ziya Məmmədov - Azərbaycan Respublikasının nəqliyyat naziri” sözləri çıxarılsın.

57. “Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 dekabr tarixli 1852 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 12, maddə 1111; 2007, 11, maddə 1133; 2009, 2, maddə 74; 2010, 2, maddə 80, 6, maddə 501; 2012, 2, maddə 135; 2014, 2, maddə 112, 5, maddə 477, 9, maddə 1027; 2016, 8, maddə 1384, 9, maddə 1518) 1-ci hissəsinə “rabitə” sözündən əvvəl “nəqliyyat,” sözü əlavə edilsin və həmin hissədən “Musa Pənahov – Azərbaycan Respublikasının nəqliyyat nazirinin müavini” sözləri çıxarılsın.

58. “Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 1876 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 12, maddə 1134; 2012, 2, maddə 117; 2014, 2, maddə 112, 6, maddə 644, 9, maddə 1027; 2016, 8, maddə 1384, 9, maddə 1518) 1-ci hissəsinə “rabitə” sözündən əvvəl “nəqliyyat,” sözü əlavə edilsin və həmin hissədən “Musa Pənahov – Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini” sözləri çıxarılsın.

59. “Bakı-Tbilisi-Qars yeni dəmir yolu” layihəsinin həyata keçirilməsi ilə əlaqədar tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 fevral tarixli 1974 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 2, maddə 155; 2014, 6, maddə 644; 2016, 8, maddə 1384; 2017, 1, maddə 85) 3.1-ci bəndində və 4-cü hissəsində “Nəqliyyat” sözü “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar” sözləri ilə əvəz edilsin.

60. “Dövlət əmlakının özəlləşdirilməsinə nəzarət üzrə Dövlət Komissiyası haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 fevral tarixli 2006 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 2, maddə 179; 2009, 3, maddə 163; 2010, 7, maddə 610; 2014, 2, maddə 112, 5, maddə 477, 9, maddə 1027; 2016, 8, maddə 1384) 1-ci hissəsindən “Azərbaycan Respublikasının nəqliyyat naziri” sözləri çıxarılsın və həmin hissəyə “rabitə” sözündən əvvəl “nəqliyyat,” sözü əlavə edilsin.

61. “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2016 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 3, maddə 248; 2009, 6, maddə 424; 2010, 2, maddə 80, 9, maddə 773; 2011, 6, maddə 519; 2012, 2, maddə 105; 2014, 2, maddə 112, 6, maddə 644; 2016, 8, maddə 1384, 9, maddə 1518) 1-ci hissəsindən “Ziya Məmmədov – Azərbaycan Respublikasının nəqliyyat naziri” sözləri çıxarılsın və həmin hissəyə “rabitə” sözündən əvvəl “nəqliyyat,” sözü əlavə edilsin.

62. “Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 20 aprel tarixli 2106 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 4, maddə 362; 2014, 9, maddə 1027) 1-ci hissəsinə “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

63. “2007-ci il fevralın 7-də Tbilisi şəhərində imzalanmış “Bakı-Tbilisi- Qars” yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda - Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiya-rekonstruksiyası və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında Saziş” üzrə Azərbaycan Respublikası Hökuməti tərəfindən səlahiyyətli orqanın müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 iyun tarixli 2222 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 6, maddə 636) 1-ci və 2-ci hissələrində “Nəqliyyat” sözü “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar” sözləri ilə əvəz edilsin.

64. “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin nəqliyyatda cinayətkarlıqla mübarizədə əməkdaşlığı haqqında” Saziş üzrə səlahiyyətli orqanların müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 17 sentyabr tarixli 2391 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 9, maddə 893) 1-ci və 2-ci hissələrində “Nəqliyyat” sözü “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar” sözləri ilə əvəz edilsin.

65. “2007-ci il avqustun 28-də Lyublyana şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 noyabr tarixli 2497 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 11, maddə 1141; 2014, 9, maddə 1027) 2-ci hissəsinə “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

66. “Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 noyabr tarixli 2505 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 11, maddə 1148; 2009, 6, maddə 424; 2014, 2, maddə 112, 6, maddə 644, 9, maddə 1027; 2016, 8, maddə 1384, 9, maddə 1518) 1-ci hissəsinə “rabitə” sözündən əvvəl “nəqliyyat,” sözü əlavə edilsin və həmin hissədən “Musa Pənahov - Azərbaycan Respublikasının nəqliyyat nazirinin müavini” sözləri çıxarılsın.

67. “Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 aprel tarixli 2756 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, 4, maddələr 273, 290; 2009, 2, maddə 74; 2010, 6, maddə 501; 2014, 5, maddə 477, 9, maddə 1027; 2016, 8, maddə 1384) 1-ci hissəsində “Əli Abbasov - Azərbaycan Respublikasının rabitə və yüksək texnologiyalar naziri” sözləri “Ramin Quluzadə - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri” sözləri ilə əvəz edilsin.

68. “Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 noyabr tarixli 27 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, 11, maddə 986; 2014, 9, maddə 1027) 2-ci hissəsinə “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

69. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 125 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 2, maddə 85, 11, maddə 886; 2010, 7, maddə 610; 2011, 2, maddə 85; 2014, 2, maddə 112, 5, maddə 477; 2016, 6, maddə 1028, 8, maddə 1384, 10, maddə 1660) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı”nın həyata keçirilməsinə dair Tədbirlər Planının 2.3.2-ci və 2.3.3-cü yarımbəndlərində “İcraçı qurumlar” sütununda “Nəqliyyat Nazirliyi” sözləri “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi” sözləri ilə əvəz edilsin.

70. “Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 10 avqust tarixli 437 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 8, maddə 645; 2012, 2, maddə 102; 2014, 2, maddə 112, 5, maddə 477, 6, maddə 644, 9, maddə 1027; 2016, 8, maddə 1384, 9, maddə 1518) 1-ci hissəsinə “rabitə” sözündən əvvəl “nəqliyyat,” sözü əlavə edilsin.

71. “2009-cu il sentyabrın 23-də Nyu-York şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 557 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 10, maddə 841; 2014, 9, maddə 1027) 2-ci hissəsinə “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

72. “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 3 may tarixli 885 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, 5, maddə 409; 2014, 9, maddə 1027; 2016, 2 (II kitab), maddə 341) 1-ci hissəsinə, 2.2-ci bəndinə və 6-cı hissəsinə “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

73. “Azərbaycan Respublikası ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında əməkdaşlıq üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 16 iyul tarixli 1035 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, 7, maddə 677; 2014, 2, maddə 112; 2016, 6, maddə 1157) 1-ci hissəsində “rabitə və yüksək texnologiyalar naziri” sözləri “nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri” sözləri ilə, “Rabitə və Yüksək Texnologiyalar” sözləri “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar” sözləri ilə əvəz edilsin.

74. “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı”nın (Elektron Azərbaycan)” təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 avqust tarixli 1056 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, 8, maddə 731; 2014, 9, maddə 1027) aşağıdakı dəyişikliklər edilsin:

74.1. 2-ci hissəyə “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin;

74.2. həmin Sərəncamla təsdiq edilmiş “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı”nın (Elektron Azərbaycan)” “7. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı” hissəsinin 7.1.15-ci yarımbəndinin “İcraçı təşkilatlar” sütununa “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

75. “2010-cu il oktyabrın 8-də Havana şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və Kuba Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 27 dekabr tarixli 1256 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, 12, maddə 1095; 2014, 9, maddə 1027) 2-ci hissəsinə “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

76. “2010-cu il oktyabrın 12-də Mexiko şəhərində imzalanmış “Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Meksika Birləşmiş Ştatlarının Rabitə və Nəqliyyat Katibliyi arasında telekommunikasiya və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 27 dekabr tarixli 1258 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, 12, maddə 1097; 2014, 9, maddə 1027) 2-ci hissəsinə “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

77. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 may tarixli 1504 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, 5, maddə 409; 2014, 5, maddə 477, 9, maddə 1027; 2016, 8, maddə 1384, 9, maddə 1470, 10, maddə 1675) ilə təsdiq edilmiş “2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı” Dövlət Proqramı”nın “5. Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlər planı” hissəsinin 6.8-ci bəndinin “İcraçılar” sütununda “RYTN” akronimi “NRYTN” akronimi ilə, “Akronimlər” hissəsində “RYTN – Rabitə və Yüksək Texnologiyalar Nazirliyi” sözləri “NRYTN – Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi” sözləri ilə əvəz edilsin.

78. “Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 may tarixli 1514 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, 5, maddə 419; 2014, 6, maddə 644, 9, maddə 1027; 2016, 8, maddə 1384, 9, maddə 1518) 1-ci hissəsinə “rabitə” sözündən əvvəl “nəqliyyat,” sözü əlavə edilsin.

79. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 7 iyul tarixli 1621 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, 7, maddə 687; 2014, 6, maddə 644, 9, maddə 1027, 10, maddə 1266; 2016, 2 (II kitab), maddə 251) ilə təsdiq edilmiş “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramı”nın “6. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı” hissəsinin 6.2.8-ci və 6.3.5-ci yarımbəndlərinin “İcraçılar” sütununa “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

80. “Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 noyabr tarixli 1850 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, 11, maddə 1049; 2014, 2, maddə 112, 6, maddə 644, 9, maddə 1027; 2016, 8, maddə 1384, 9, maddə 1518) 1-ci hissəsinə “rabitə” sözündən əvvəl “nəqliyyat,” sözü əlavə edilsin və həmin hissədən “Musa Pənahov – Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini” sözləri çıxarılsın.

81. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 dekabr tarixli 1890 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, 12, maddə 1172; 2014, 5, maddə 477, 9, maddə 1027; 2015, 7, maddə 841; 2016, 2 (II kitab), maddə 251, 8, maddə 1384) ilə təsdiq edilmiş “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”nın “2. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı” hissəsinin 2.5.5-ci yarımbəndinin “İcraçılar” sütununa “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

82. “Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 15 mart tarixli 2095 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 3, maddə 229; 2014, 9, maddə 1027) adına və 1-ci hissəsinə “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

83. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 9, maddə 872; 2014, 5, maddə 477, 9, maddə 1027; 2016, 5, maddə 861) ilə təsdiq edilmiş “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın 5.1-ci bəndinə “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

84. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 21 dekabr tarixli 2621 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 12, maddə 1315; 2014, 2, maddə 112, 5, maddə 477, 9, maddə 1027; 2016, 2 (II kitab), maddə 251, 8, maddə 1384, 11, maddə 1819) ilə təsdiq edilmiş “2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı”nın “6. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı” hissəsinin 6.2.9-cu yarımbəndinin “İcraçılar” sütununda “RYTN” akronimi və 6.2.11-ci yarımbəndinin “İcraçılar” sütununda “NN” akronimi “NRYTN” akronimi ilə, “Akronimlər” hissəsində “RYTN – Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi” sözləri “NRYTN – Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi” sözləri ilə əvəz edilsin.

85. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli 2837 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 4, maddə 391; 2014, 5, maddə 477, 9, maddə 1027; 2016, 8, maddə 1384) ilə təsdiq edilmiş “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın “6. Dövlət Proqramının icrasına dair Tədbirlər Planı” hissəsinin 6.3.4-cü, 6.4.2-ci, 6.4.3-cü və 6.4.7-ci yarımbəndlərinin “İcraçılar” sütununa “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

86. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 iyun tarixli 2966 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 6, maddə 704; 2014, 9, maddə 1027; 2016, 2 (II kitab), maddə 334, 9, maddə 1470; 2017, 3, maddə 353) ilə təsdiq edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı”nın “4. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı” hissəsinin 4.4.33-cü yarımbəndinin “İcraçı orqanlar” sütununa “Rabitə” sözündən əvvəl “Nəqliyyat,” sözü əlavə edilsin.

87. “Azərbaycan Respublikasının Milli Atlası”nın redaksiya heyətinin yeni tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli 147 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik

Toplusu, 2013, № 12, maddə 1568; 2014, № 9, maddə 1027; 2016, № 8, maddə 1384) 1-ci hissəsində "Əli Abbasov - rabitə və yüksək texnologiyalar naziri" sözləri "Ramin Quluzadə - nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri" sözləri ilə əvəz edilsin və həmin hissədən "Ziya Məmmədov - nəqliyyat naziri" sözləri çıxarılsın.

88. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 195 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1612; 2014, № 9, maddə 1027; 2016, № 2 (II kitab), maddə 251, № 8, maddə 1384, № 10, maddə 1661) ilə təsdiq edilmiş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nın "2. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 2.2.3-cü yarımbəndinin "İcraçılar" sütununa "Rabitə" sözündən əvvəl "Nəqliyyat," sözü əlavə edilsin.

89. "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 221 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 34; 2016, № 8, maddə 1384) 3-cü hissəsində "Nəqliyyat Nazirliyi" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi" sözləri ilə əvəz edilsin.

90. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli 359 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 374) aşağıdakı dəyişikliklər edilsin:

90.1. 2-ci və 4-cü hissələrə "Rabitə" sözündən əvvəl "Nəqliyyat," sözü əlavə edilsin;

90.2. həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın "2. Cari vəziyyət" hissəsinin on altıncı - on səkkizinci abzaslarında "Rabitə və Yüksək Texnologiyalar" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin.

91. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli 667 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 894; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2017, № 3, maddə 353) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın 13.2.9-cu yarımbəndində "Rabitə və Yüksək Texnologiyalar Nazirliyi" sözləri, 13.9.1-ci yarımbəndində "Nəqliyyat Nazirliyi" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi" sözləri ilə əvəz edilsin.

92. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 4 noyabr tarixli 827 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1432; 2016, № 8, maddə 1384, № 9, maddə 1464) ilə təsdiq edilmiş "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nın 7.8-ci bəndinin "İcraçılar" sütununa "Rabitə" sözündən əvvəl "Nəqliyyat," sözü əlavə edilsin.

93. "Azərbaycan Respublikasında yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 28 noyabr tarixli 893 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1495; 2015, № 10, maddə 1192; 2016, № 8, maddə 1384; 2017, № 4, maddə 578) 2-ci, 3-cü və 5-ci hissələrinə "Rabitə" sözündən əvvəl "Nəqliyyat," sözü əlavə edilsin.

94. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 964 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1637; 2016, № 8, maddə 1384; 2017, № 4, maddə 576) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.15-ci bəndinin "İcraçılar" sütununa "Rabitə" sözündən əvvəl "Nəqliyyat," sözü əlavə edilsin.

95. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 mart tarixli 1121 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 3, maddə 316; 2016, № 2 (II kitab), maddə 339) 1-ci hissəsində, 3.2.2-ci yarımbəndində və 3.3-cü bəndində "Nəqliyyat" sözü "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin.

96. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 dekabr tarixli 1645 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1532; 2016, № 8, maddə 1384) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015 - 2020-ci illər üçün Strategiya"nın "9. Strategiyanın icrası üzrə əsas fəaliyyət istiqamətləri" hissəsinin 9.2.2-ci yarımbəndinin "İcraçılar" sütununa "Rabitə" sözündən əvvəl "Nəqliyyat," sözü əlavə edilsin.

97. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 39; 2016, № 8, maddə 1384, № 9, maddə 1470; 2017, № 5, maddə 802) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın 4.1.1-ci - 4.1.3-cü yarımbəndlərinin "İcraçılar" sütununa "Rabitə" sözündən əvvəl "Nəqliyyat," sözü əlavə edilsin.

98. "Azərbaycan Respublikasının fövqəladə hallar atlası"nın nəşri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 mart tarixli 1843 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 486) 2-ci hissəsində "rabitə və yüksək texnologiyalar naziri" sözləri "nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri" sözləri ilə əvəz edilsin və həmin hissədən "Ziya Məmmədov – Azərbaycan Respublikasının nəqliyyat naziri" sözləri çıxarılsın.

99. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli 1993 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 749) ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın 1.1-ci, 1.3 - 1.8-ci bəndlərinin "İcra/Tövsiyə" sütununa "Rabitə" sözündən əvvəl "Nəqliyyat," sözü əlavə edilsin.

100. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2197 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1286) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında daşınmaz əmlakın kadastrı sisteminin inkişafı, torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılmasına dair 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 7.1.5-ci, 7.3.2-ci, 7.3.5-ci, 7.3.6-cı və 7.3.8-ci yarımbəndlərinin "İcraçı qurumlar" sütununa "Rabitə" sözündən əvvəl "Nəqliyyat," sözü əlavə edilsin.

101. "2020-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun (üç qrup və bir 1/4 oyunu) Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 sentyabr

tarixli 2331 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 9, maddə 1526) 1-ci hissəsində "rabitə və yüksək texnologiyalar naziri" sözləri "nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri" sözləri ilə əvəz edilsin və həmin hissədən "Ziya Məmmədov – Azərbaycan Respublikasının nəqliyyat naziri, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin üzvü" sözləri çıxarılsın.

102. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 sentyabr tarixli 2345 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 9, maddə 1540) aşağıdakı dəyişikliklər edilsin:

102.1. 2-ci hissəyə "Rabitə" sözündən əvvəl "Nəqliyyat," sözü əlavə edilsin;

102.2. həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın "5. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsinin 5.1.1 - 5.1.11-ci, 5.2.1-ci, 5.2.2-ci, 5.2.4 - 5.2.10-cu, 5.3.1 - 5.3.3-cü, 5.4.1.1 - 5.4.1.3-cü, 5.4.2.1-ci, 5.4.3.1 - 5.4.3.5-ci, 5.5.1 - 5.5.3-cü, 5.5.5-ci, 5.6.1-ci, 5.6.3-cü, 5.6.4-cü, 5.7.1-ci, 5.7.2-ci və 5.7.4-cü yarımbəndlərinin "İcraçı təşkilatlar" sütununda "Rabitə və Yüksək Texnologiyalar" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin.

103. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 oktyabr tarixli 2358 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 10, maddə 1648) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya"nın "6. Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair Fəaliyyət Planı" hissəsinin 6.2.1-ci yarımbəndinin "İcraçı orqanlar" sütununda "RYTN" akronimi "NRYTN" akronimi ilə, "Akronimlər" hissəsində "RYTN – Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi" sözləri "NRYTN – Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi" sözləri ilə əvəz edilsin.

104. "Voleybol üzrə qadınlar arasında Avropa çempionatının final mərhələsinin 2017-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 noyabr tarixli 2453 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 11, maddə 1892) 1-ci hissəsində "rabitə və yüksək texnologiyalar naziri" sözləri "nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri" sözləri ilə əvəz edilsin və həmin hissədən "Ziya Məmmədov - Azərbaycan Respublikasının nəqliyyat naziri" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 avqust 2017-ci il
1574

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 1 may 2018-ci il tarixli **30** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 2 may 2018-ci il, 98 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 898**)
2. 14 iyun 2019-cu il tarixli **742** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 15 iyun 2019-cu il, 129 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 1034**)

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 14 iyun 2019-cu il tarixli **742** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 15 iyun 2019-cu il, 129 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 1034**) ilə 40-cı bənd ləğv edilmişdir.

[2] 1 may 2018-ci il tarixli **30** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 2 may 2018-ci il, 98 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 898**) ilə 50-ci bənd ləğv edilmişdir.